**Azərbaycandan Gürcüstana"Ömür poeziyasi"**

*2006-cı il mayın 24-də Gürcüstan Texniki Universitetinin teatr studiyasında Gürcüstana* ***"Omür poeziyası"*** *adlı şeirlər kitabı ilə (kitab gürcü dilinə tərcümə olunub) qonaq gəlmiş Xəzər Universitəsinin prezidenti, professor Hamlet Isaxanlı ilə görüş keçirilmişdir.*

*Ilk baxışda tanınmış riyaziyyatçı-alimin son dərəcə orijinal, həssas və dərin mənalı poeziyası qəribə görünə bilərdi. Ancaq onunla görüş və onun heyranedici şəxsiyyətinin aşkara çıxarılması öz poetik dünyasına bağlı olan əsl insan olduğuna hər kəsə inandırdı. Hamlet Isaxanlının dostları deyir:* ***"Onun poeziyası şəxsi ləyaqətindən və istedadından yaranır".*** *Bu, Hamlet Isaxanlının şeirlərini oxuyanda, hər bir oxucuya aydın olur.*

*Qeyd etmək yerinə düşərdi ki, Hamlet Isaxanlının poeziyası ingilis, rus, fars və Çin dillərinə də tərcümə olunub. O, indi daha çox şaddır və məmnundur ki, İmir Məmmədli onun poeziyasını gürcü dilinə tərcümə edib. İndi onun şeirlərini gürcülər də oxuya bilərlər.*

*Hamet Isaxanlı* ***"Gürcüstan bu gün"*** *qəzetinə verdiyi müsahibədə qeyd etmişdi:* ***"Mənim kitabım bir neçə dilə tərcümə olunub, lakin mən çox xoşbəxtəm ki, mənim şeirlərim gürcü dilinə tərcümə olunub. Gürcüstan mənim anadan olduğun ölkədir. Əlavə olaraq qeyd edim ki, Gürcüstanda keçirdiyim uşaqlığımın ən xatirələri mənim bir çox şeirlərimə təsir edib ".***

*Hamlet Isaxanlı Gürcüstanın Qardabani rayonunda doğulub və oranı öz Ana Vətəni adlandırır. O, gürcülərlə də six əlaqə saxlayır.*

*Yeri gəlmişkən, ənyaxşı ali məktəblərdən biri kimi tanınan və Azərbaycanda ilk özəl universitetin Xəzər Universitetinin qurucusu və prezidenti kimi professor Hamlet Isaxanlı Gürcüstanın universitetləri ilə six əlaqələr saxlayır. Hamlet müəllim deyir:* ***"Həmişə mən buraya, öz ana yurduma çox həvəslə gəlirəm. Mənim anam hələ də burada yaşayır. Eyni zamanda, mən bilirəm ki, mənim dostlarım həmişə burada məni gözləyirlər".***

*Qardabanidə anadan olmuş Gürcüstanın Enerji naziri müavini Isak Novruzov da tədbirdə iştirak edirdi və o bir qədər heyrətlənmişdi. Cənab Novruzov deyirdi:* ***"Man Hamlet Isaxanlının tanınmış riyaziyyatçı və alim olduğu haqqında eşitmişdim. Lakin onun şairliyi mənim üçün tamamilə gözlənilməz oldu. Səmimiyyətlə deyirəm ki, mən onunla fəxr edirəm ".***

*Hamlet İsaxanlı ilə görüş adətən mədəni tədbirlərin təşkilatçısı olan "Parnas" Tələbə Birliyi tərəfindən təşkil olunmuşdu. Tələbələr qeyd etdilər ki, Hamlet Isaxanlının kitabının təqdimatı və ümumilikdə onun səfəri çox fərqli və bənzərsiz oldu.*

*Mübaliğəsiz demək olar ki, İsaxanlının teatrstudiyasında iştirakı və* ***"Ömürpoeziyası"*** *adlı kitabının təqdimatı zamanı zal_ tamamıh dolmuşdu və odur ki, auditoriya həyat və sevgi poeziyası ilə doldu.*

***Marqaret Şakaraşvili 26.05.2006***